# Riyaziyyat

1. $\frac{7}{8}<\frac{n}{48}<\frac{15}{16}$ bərabərsizliyi $n$ -in neçə müxtəlif natural qiymətində doğrudur?
A) 2 B) 3 C) 4
D) 5 E) 6

2. Şəkildə $a \parallel b$ olarsa $\alpha$ bucağını tapın.




A) 10° B) 70° C) 20°
D) 80° E) 50°

3. $\frac{a+15}{a}$ natural ədəd və $10-a$ isə sadə ədəddir. $a$ -nın ala biləcəyi natural qiymətlərin cəmini tapın.
A) 7 B) 6 C) 8
D) 10 E) 11

4. $3<a<5$ olarsa, $|3-a|+|10-2a|+a+4$ ifadəsinin qiymətini tapın.
A) 11 B) 9 C) 17 D) 3 E) 15

5. $BD$ şüası $145^0$-li $ABC$ bucağını fərqi $33^0$ olan iki bucağa bölür.Böyük bucağı tapın.
A) $59^0$ B) $72^0$ C) $85^0$
D) $89^0$ E) $65^0$

6. $2\frac{1}{5}:1,(2)-\frac{4}{5}$ ifadəsinin qiymətini tapın.
A) 1 B) 2 C) 3
D) 4 E) 5

7. Uyğun tərəfləri paralel olan bucaqlardan biri digərindən 160% çoxdur. Böyük bucağı tapın.
A) 120° B) 130° C) 140°
D) 150° E) 160°

8. $x, y, z$ ədədlərinin ədədi ortası 34, $a$ və $b$ ədədlərinin ədədi ortası isə 24-dür. $x, y, z, a, b$ ədədlərinin ədədi ortasını tapın.
A) 32 B) 30 C) 28
D) 26 E) 25

9. $\overline{145a}$ dördrəqəmli ədədi 6-ya tam bölünərsə $a$-nın ala biləcəyi qiymətlərin sayını tapın.
A) 1 B) 2 C) 3
D) 4 E) 5

10. Rənglənmiş hissəni tapın.




A) $A\cap(B\cap C)$
B) $A/(B\cup C)$
C) $(A\cap B)\cup(A\cap C)$
D) $(A\cup B)\cup C$
E) $(B\cup C)/A$

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

11. Şəkildə $OC$ şüası $AOB$ bucağının tənbölənidir. Şəklə əsasən $AOB$ bucağının dərəcə ölçüsünü tapın.




A) 52° B) 44° C) 36°
D) 38° E) 42°

12. $|-4{,}2 + 1{,}3| - 3{,}3$ ədədinin kəsr hissəsini tapın.
A) 0,1 B) 0,3 C) 0,7
D) 0,6 E) 0,2

13. $A = \{1; 3; 4; 7; 8; 10\}$, $B = \{2; 3; 5; 6; 8; 9\}$, $C = \{4; 5; 11; 12\}$ olarsa, $C \cup (A \cap B)$-ni tapın.

A) $\{1; 2; 4; 5; 11; 12\}$
B) $\{1; 3; 4; 7; 11; 12\}$
C) $\{1; 2; 4; 7; 9; 11\}$
D) $\{2; 3; 5; 6; 8; 11\}$
E) $\{3; 4; 5; 8; 11; 12\}$

14. Sinifdəki şagirdlərin 30%-i riyaziyyat dərnəklərində iştirak edir. Riyaziyyat dərnəyində iştirak etməyənlərin sayı 21 nəfər olarsa, sinifdə neçə şagird var?
A) 28 B) 26 C) 27
D) 30 E) 32

15. Uzunluğu 48 sm olan parça ardıcıl olaraq 1:2:5 nisbətində üç hissəyə bölünmüşdür. Kənardakı parçaların fərqini tapın.
A) 12 B) 16 C) 24
D) 20 E) 22

16. $\frac{n(A\setminus B)}{4} = \frac{n(B\setminus A)}{5} = \frac{n(A\cup B)}{16}$ olarsa, $n(A \cap B)$-nin ən kiçik ikirəqəmli qiymətini tapın.
A) 10 B) 12 C) 14 D) 16 E) 18

17. 20% ziyanla 240 manata satılan televizor 10% gəlirlə neçə manata satılar?
A) 280 B) 330 C) 420
D) 450 E) 500

18. $a, b, c$ vahiddən fərqli natural ədədlərdir. $a \cdot b = 12,\ b \cdot c = 39$ olarsa, ƏKOB$(a; c)$-ni tapın.
A) 34 B) 42 C) 43
D) 39 E) 52

19. Saat $10^{20}$ olarsa, saatın dəqiqə və saat əqrəbləri arasındakı bucağı tapın.
A) $145^0$ B) $155^0$ C) $150^0$
D) $170^0$ E) $160^0$

20. $\left(1-\frac{1}{6}\right)\left(1-\frac{1}{7}\right)\left(1-\frac{1}{8}\right)\ldots\left(1-\frac{1}{m}\right) = \frac{1}{18}$ olarsa, $m$ -i tapın.
A) 90 B) 70 C) 60
D) 50 E) 40

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam1

21. $\alpha$ bucağı $\beta$ bucağı ilə qonşu , $\gamma$ bucağı ilə isə qarşılıqlı bucaqdır. $\alpha + \beta + \gamma = 235^0$ olarsa, $\beta$ bucağını tapın.
    A) $115^0$ B) $120^0$ C) $135^0$
    D) $110^0$ E) $125^0$

22. $a: b: c = 2: 7: 5$ olarsa, $\frac{a+c}{b} + \frac{a+b}{c} + \frac{b+c}{a}$ ifadəsinin qiymətini tapın.
    A) 4,9 B) 5,6 C) 8,8
    D) 9,4 E) 10,2

**Açıq tipli test tapşırıqları:**

23. Düz xətt üzərində neçə nöqtə götürmək lazımdır ki, parçaların sayı şüaların sayından iki dəfə çox olsun.

24. $A$ çoxluğunun alt çoxluqlarının sayı 64 , $B$ çoxluğunun alt çoxluqlarının sayı isə 32-dir.Bu çoxluqların kəsişməsinin ən çox neçə elementi ola bilər?

25. Bir ədədin 40%- i digər ədədin $\frac{1}{4}$ hissəsinə bərabərdir.Bu ədədlərin cəmi 182 olarsa, kiçik ədəd neçədir?

26. $2^n \cdot 3^m \cdot 5$ ədədinin natural bölənlərinin sayı 42 olarsa, $m$-in böyük qiymətini tapın $(m, n \in N)$.

27. Uyğunluğu müəyyən edin.
    1. a=4567
    2. a=0,345
    3. a=4,7

    a. a-nın tərtibi 3-dür
    b. a-nın qiymətli hissəsi 4,7-dir.
    c. a-nın tərtibi -1-dir
    d. a-nın tərtibi 0-dır
    e. a-nın qiymətli hissəsi 3,45-dir

**Situasiya**

Avtobus parkında 30 və 45 yerlik avtobuslar var.Bu avtobusların sayları uyğun olaraq 5:3 nisbətindədir.

28. 30 yerlik avtobusların sayı 45 yerlik avtobusların sayından 8 ədəd çox olarsa, bu növ avtobusların hər birinin sayını tapın.

29. 45 yerlik avtobusların sayı 30 yerlik avtobusların sayından neçə faiz azdır?

30. 240 sərnişini avtobusdakı yerləri tam doldurmaqla ən azı neçə avtobusa və necə yerləşdirmək olar?

***Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı***

TheBirlikTeam1

## Coğrafiya

31. Üfüqin cəhətlərinin dərəcə qiyməti adlanır :
A) kompas
B) azimut
C) rumb
D) koordinat
E) üfüq xətti

32. Böyük miqyaslı xəritə miqyasını müəyyən edin.
A) 1 : 3 200 000 B) 1 : 500 000
C) 1 : 320 000 D) 1 : 150 000
E) 1 : 2 500 000

33. C nöqtəsinə aid olan əlamətlər:




1. Dağın ətəyində yerləşir.
2. Çökəkliyin dibində yerləşir.
3. A nöqtəsindən yüksəkdə yerləşir.
4. B nöqtəsindən iki kəsmə yüksəkliyi qədər hündürdür.
5. B nöqtəsindən aşağıda yerləşir.
6. Ən hündür nöqtədir.
A) 1, 3, 5 B) 3, 4, 6 C) 1, 4, 6
D) 2, 3, 6 E) 2, 3, 5

34. Xəritə üzərində əyri xətlərin uzunluğunu hesablamaq üçün istifadə olunan cihaz:
A) kurvimetr
B) hiqrometr
C) barometr
D) nivelir
E) kompas

35. Ankara şəhəri Madrid şəhərindən şərqdə yerləşir. Madrid şəhəri Ankaradan hansı azimutda və istiqamətdə yerləşir?
A) $90^0$ ; qərb
B) $270^0$ ; şərq
C) $270^0$ ; qərb
D) $180^0$ ; şimal
E) $90^0$ ; şərq

36. Coğrafiya elminin ***ənənəvi*** tədqiqat metodları:
A) Ekspedisiya, CİS, riyazi - statistik, tarixi
B) Aerokosmik, riyazi - statistik, coğrafi modelləşdirmə, CİS
C) Müqayisə, coğrafi proqnozlaşdırma, tarixi, riyazi- statistik
D) Tarixi, müqayisə, aerokosmik, coğrafi proqnozlaşdırma
E) Kartoqrafik, tarixi, müqayisə, çöl tədqiqatları

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

37. Miqyası 1: 600 000 olan xəritədə eni 2 sm , uzunluğu isə 3 sm olan əkin yerinin həqiqi sahəsini hesablayın.
A) 36 $km^2$ B) 225 $km^2$ C) 216 $km^2$
D) 30 $km^2$ E) 1296 $km^2$

38. Uyğunluğu müəyyən edin.

| **Coğrafiyanın sahələri** | **Öyrəndiyi obyekt** |
|---|---|
| I. Rekreasiya coğrafiyası | 1. Ətraf mühitdə yaranan problemlər və onların həlli yolları |
| II. Siyasi coğrafiya | 2. Turizm ehtiyatları və istifadə yolları |
| III. Coğrafi informasiya sistemləri | 3. Yaşayış və təsərrüfat yerlərinin səmərəli qurulması |
| | 4. Məlumatların toplanması, təhlili və rəqəmsal xəritələrin hazırlanması |
| | 5. Dövlətlərin ərazidə yerləşməsinin, idarəetmə formalarının, beynəlxalq əlaqələrinin tədqiqi |

A) I-5, II-2, III-4
B) I-1, II-4, III-3
C) I-3, II-1, III-2
D) I-2, II-3, III-1
E) I-2, II-5, III-4

39. A və B məntəqələrinə aid olan xüsusiyyətləri və onlar arasında olan məsafəni km-lə təyin edin.




1. Şərq yarımkürəsində yerləşirlər.
2. Ən uzun paralel çevrəsi üzərində yerləşirlər
3. Qrinviçdən eyni məsafədə yerləşirlər.
4. Ekvatordan eyni məsafədə yerləşirlər.
5. Qütblərdən məsafələri eynidir.
6. Qərb yarımkürəsində yerləşirlər.
A) 1, 3, 6 – 6660 km
B) 1, 4, 5 – 3843 km
C) 2, 3, 4 – 4924 km
D) 3, 4, 5 – 4995 km
E) 4, 5, 6 – 4995 km

40. Sxemdə K nöqtəsinin qonşu horizontallarını müəyyən edin.




A) 60 - 80 m
B) 80 - 100 m
C) 40 - 60 m
D) 75 - 100 m
E) 50 - 75 m

41. Coğrafi koordinatı $50^0$ şm.e və $30^0$ ş.u olan Kiev şəhəri Bakıdan hansı istiqamətdə yerləşir ?
A) şimal-qərb
B) şimal-şərq
C) şimal
D) cənub-şərq
E) cənub-qərb

42. Planda eyni hündürlüyə malik olan nöqtələri birləşdirən əyri xətlər adlanır :
A) izobat B) izobar C) izoseyst
D) izohips E) izoterm

43. Təyyarə Bakıdan $270^0$ azimutda yerləşən və onunla $125^0$ uzunluq fərqinə malik olan məntəqədən yola çıxdı. Təyyarə əvvəlcə $0^0$ , sonra isə $180^0$ -lik azimutla eyni meridian çevrəsi üzrə cəmi 11100 km məsafə qət etdi. Təyyarənin çatacağı məntəqənin coğrafi koordinatlarını təyin edin.
A) $40^0$ şm.e., $50^0$ ş.u.
B) $50^0$ şm.e., $55^0$ q.u.
C) $40^0$ şm.e., $105^0$ ş.u.
D) $40^0$ şm.e., $75^0$ ş.u.
E) $70^0$ şm.e., $50^0$ q.u.

44. Böyük Coğrafi Kəşflər dövrünə aiddir :
A) Antarktida materikinin kəşfi
B) Konqo, Zambezi çaylarının, Viktoriya şəlaləsinin kəşfi
C) Qərb istiqamətində Hindistana dəniz yolunun axtarışı
D) R.Amundsen və R.Skott ilk olaraq cənub qütbünə çatırlar
E) "Çellencer" ingilis tədqiqat gəmisinin səyahətindən sonra Okeanoqrafiya elminin sürətlə inkişafı

45. Uzunluğu 4500 km olan avtomobil yolu xəritədə 30 sm olarsa, bu xəritənin miqyasını müəyyən edin.




46. Uyğunluğu müəyyən edin.
*Tədqiqat metodları*
1. Kartoqrafik
2. Tarixi
3. Müqayisə
4. Coğrafi modelləşdirmə
*Xüsusiyyətləri*
a. Coğrafi hadisələrin qrafik və simvollar vasitəsilə hazırlanmasına və öyrənilməsinə əsaslanır.
b. Coğrafi hadisələrin fərqli və oxşar cəhətləri təhlil edilir.
c. Müxtəlif məzmunlu xəritələrin öyrənilməsinə əsaslanır.
d. Coğrafi obyektlərdə baş verən dəyişiklikləri öyrənir.
A) 1 – b; 2 – c; 3 – d; 4 – a
B) 1 – a; 2 – c; 3 – d; 4 – b
C) 1 – a; 2 – c; 3 – b; 4 – d
D) 1 – c; 2 – d; 3 – b; 4 – a
E) 1 – c; 2 – b; 3 – d; 4 – a

47. A-B-C xətti üzrə məsafənin yarımkürələrin 1: 20 000 000 miqyaslı xəritəsində neçə sm olduğunu hesablayın.




A) 20,8 sm B) 44,4 sm C) 38 sm
D) 26 sm E) 54 sm

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
t.me/BirlikTeam1

48. Doğru *olmayan* variantı seçin.
A) Xəritə-sxem sadələşdirilmiş şərti işarəli təsvirdir
B) Xəritədə hər hansı bir göstəricinin ərazi daxilində dəyişməsini vizual əks etdirən təsvir kartoqram adlanır
C) Torpaq örtüyü keyfiyyət fonu üsulu ilə təsvir edilir
D) Kartodiaqram ərazi üzrə məlumatların müxtəlif ölçülü həndəsi fiqurlarla təsviridir
E) Plan və topoqrafik xəritələrdə relyef areal üsulu ilə təsvir edilir

49. Klasteri tamamlayın




a. Yerüstü b. Havadan c. Marşrut
d. Menzula e. Gözəyarı
A) 1-a, 2-b, 3-c B) 1-e, 2-c, 3-b
C) 1-b, 2-a, 3-d D) 1-a, 2-e, 3-c
E) 1-d, 2-b, 3-e

50. Əvvəl 45° azimutla, sonra 135° azimutla eyni məsafə qət edən turistlər düşərgəyə ən qısa yolla hansı azimut və istiqamətlə qayıtmalıdırlar?
A) 270°, Q
B) 315°, ŞmŞ
C) 225°, CQ
D) 90°, Ş
E) 180°, C

51. *XX əsrin əvvəllərində coğrafiya sahəsində ana dilində yazılmış bir –neçə kitabın ("Qafqaz coğrafiyası", "Ümumi coğrafiya") müəllifi olan bu şəxs Azərbaycanda coğrafiyanın tədrisi metodikasının banisi sayılır.*
***Haqqında bəhs olunan şəxs kimdir ?***
A) A. Bakıxanov
B) Ə. Bakuvi
C) M. Baharlı
D) H. Zərdabi
E) Q.R. Mirzəzadə

52. Miqyassız şərti işarələri seçin.




A) 1, 5, 7 B) 3, 4, 7 C) 2, 6, 8
D) 2, 4, 8 E) 1, 5, 6

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Açıq tipli test tapşırıqları:**

53. Qrinviç meridianı üzərində olan A məntəqəsi 30° c.e.-də, B məntəqəsi 20° şm.e.-də yerləşir. Baş miqyası 1 sm-də 200 km olan xəritədə bu məntəqələr arasında məsafə 26 sm olarsa, təhrifin neçə km olduğunu hesablayın (1° meridian = 111 km).

54. Coğrafi koordinatlar daxilində verilən əraziləri sahəsinə görə böyükdən kiçiyə doğru ardıcıl düzün.




55. Horizontallarla təsvir olunan dağın ətəyində yerləşən A nöqtəsinin hündürlüyü 1100 m-dir. Kəsmə yüksəkliyini müəyyən edin.




56. Coğrafiya elminin inkişaf mərhələlərini ardıcıl düzün.
1. Texnoloji mərhələ (peyk şəkilləri, CİS, 3D modelləşdirmə)
2. Təsviri mərhələ (qayaüstü rəsmlər, işarələr)
3. Elmi mərhələ (fiziki və iqtisadi coğrafiyanın ayrılması və inkişafı)
4. Kəşflər dövrü (yeni qitə və dəniz yollarının kəşfi, xəritəçəkmə)

57. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.




a. Qərb yarımkürəsində yerləşir
b. Ən böyük adasını F. Magellan kəşf etmişdir
c. Leyf Eriksson şimal-şərqinə səyahət etmişdir
d. Üç yarımkürədə yerləşir
e. Üç okeanla əhatə olunmuşdur

### Situasiya

***Sizə təqdim olunmuş Azərbaycanın iqlim xəritəsinə əsasən sualları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***




58. Xəritədə istifadə olunan təsvir üsullarını qeyd edin.

59. Xəritə miqyas və məzmununa görə hansı növə aiddir ?

60. Bu xəritədə Ağdam və Hacıqabul şəhərləri arasında məsafə 4 sm-ə bərabərdir. Şəhərlər arasındakı həqiqi məsafəni müəyyən edin.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

Tme/BirlikTeam1

## Tarix

61. Qədim Daş dövrünün sonları üçün xarakterikdir:
1. Qəbilə icması yarandı
2. İstehsal təsərrüfatı yarandı
3. Kamilləşmiş müasir insan tipi yarandı
4. İbtidai əkinçilik və maldarlıq yarandı
5. Toxuculuq inkişaf etdi

A) 1, 3 B) 2, 4 C) 3, 4
D) 3, 5 E) 1, 5

62. *Onlar e.ə III minilliyin ikinci yarısında Urmiya gölünün cənub-qərbində dövlət qurumu yaratdılar. İkiçayarası sakinləri tərəfindən "dağ əjdahaları" adlandırılırdı.*
Mətndə bəhs olunan dövlət qurumu Lullubi dövlət qurumundan fərqli olaraq:
1. E.ə III minilliyin sonunda süquta uğradı
2. Assuriya dövlətinin yürüşünə məruz qaldı
3. Akkad dövlətini süquta uğratdılar
4. Mesopotamiyada şəhərlərarası toqquşmalara son qoyuldu
5. Nuzi şəhəri ilə mal mübadiləsi aparırdı

A) 1, 2 B) 3, 4 C) 2, 5
D) 1, 5 E) 2, 4

63. Mannanın İranzudan Ahşerinin hakimiyyətinin sonunaqədərki dövrü üçün xarakterik ***deyil:***
A) İskit hökmdarı İşpakay ilə müttəfiqlik münasibətlərinin yaranması
B) Aşşurbanipalın Manna üzərinə yürüşə başlaması
C) Sirdakka şəhərində müqavilə imzalanması
D) Midiya və Babilə qarşı mübarizədə Mannanın Assuriyaya kömək göstərməsi
E) Hökmdarın Uauş dağında canişinlərlə döyüşdə öldürülməsi

64. Səbəb - Nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| 1 | Albaniyada 457-463-cü il azadlıq hərəkatı | Albaniya dövlətinin süquta uğraması |
| 2 | II Vaçenin sərbəst siyasəti | Sasani dövləti ilə münasibətlərin kəskinləşməsi |
| 3 | I Qubadın məzdəkilərə arxalanması | İri feodallar tərəfindən taxtdan salınması |
| 4 | Urnayrın hakimiyyətə gəlməsi | Albaniyanın Dzirav döyüşündə itirdiyi torpaqlara yenidən sahib olması |

A) 1, 2 B) 3, 4 C) 2, 4
D) 1, 3 E) 2, 3

65. Uyğunluğu müəyyən edin:
1. Mete xaqan
2. Teoman tanhu
3. Sin Şi Xuandi
a. Ölkə ərazisini 36 vilayətə böldü
b. Pinçen şəhəri yaxınlığında qələbə qazandı
c. Ötükən şəhərini paytaxt seçdi
d. Hun imperiyasını iki yerə parçaladı

A) 1-b; 2-c; 3-a
B) 1-a; 2-c; 3-d
C) 1-d; 2-b; 3-c
D) 1-b; 2-a; 3-c
E) 1-b; 2-d; 3-a

66. Paytaxtları ulduz ilə işarələnmiş qədim dövlətlər üçün oxşar cəhətdir:




A) III əsrin oratalarına qədər Roma ilə siyasi-iqtisadi əlaqələri mövcud olmuşdur
B) Selevki dövlətindən asılı hala düşdü
C) Yunan-Makedoniya əsilli sərkərdələr tərəfindən idarə olunurdu
D) Tikinti materialı – kirəmitdən istifadə edilirdi
E) Əhəməni dövləti tərəfindən süquta uğradılmışdır

67. Şumerdə hərbi başçıların hökmdara çevrilməsinə səbəb oldu:
A) Şəhərlər arasında müharibələrin artması
B) Yazılı qanunların meydana gəlməsi
C) Vahid dövlətin yaranması
D) Kutilərin hakimiyyətinə son qoyulması
E) Türkdilli əhalinin məskunlaşması

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

68. ***Düzgün olmayan*** bəndi müəyyən edin:
A) Dastakert irsi torpaq sahibliyi idi
B) I Xosrovun islahatları ilə sahibsiz torpaqlar hərbçilərə paylandı
C) Azərbaycanda kəndlilər feodaldan şəxsən asılı deyildilər
D) Hərbi xidmət əvəzində verilən şərti torpaqlar xostak adlanırdı
E) Qərbi Avropada feodalizm III əsrdən başlamış, XVII əsrə qədər davam etmişdir

69. Cavanşirin fəaliyyəti ilə bağlı uyğunluğu müəyyən edin:
1. VII əsrin I yarısı
2. VII əsrin II yarısı
a. III Yəzdigərd tərəfindən mükafatlandırılması
b. Bizans imperatoru ilə ittifaq yaratması
c. Savalan dağı yaxınlığında məğlubiyyət
d. Kür çayı sahilində xəzərlərin məğlub edilməsi
A) 1-a; 2-b,d
B) 1-a,b; 2-c,d
C) 1-c; 2-a
D) 1-b; 2-d
E) 1-d; 2-c

70. Eyler - Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. Təsərrüfatda xışdan istifadə edilirdi
b. Böyük tayfa ittifaqları yarandı
c. İlkin şəhər mərkəzləri yarandı
d. Kollektiv dəfn adətləri yarandı
e. Tacirlər qrupu sənətkarlardan ayrıldı
A) 1-a; 2-c; 3-d
B) 1-d; 2-b,c; 3-a
C) 1-d; 2-c; 3-a
D) 1-e; 2-b,c; 3-a
E) 1-c; 2-b; 3-e

71. Son feodalizm dövründə:
A) Məhsuldar qüvvələr inkişaf etdi, satış üçün istehsal edilən məhsul artdı
B) Ərəblər, türklər, monqollar feodalizmə keçdi
C) "Xalqların böyük köçü" başa çatdı
D) Hunlar indiki Macarıstan ərazisində məskunlaşdı
E) German tayfaları Roma imperiyası ərazilərinə daxil oldu

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

72. Ərəblər ilə Muğan əhalisi arasında bağlanmış müqavilə üçün xarakterikdir:
1. Muğan əhalisi ərəblərin hakimiyyətini qəbul etməli idi
2. Dərbənd əhalisi vergidən azad edildi
3. 644-cü ildə imzalanmışdır
4. Həddi-büluğa çatan bir dinar və ya onun dəyərində cizyə ödəməli idi
5. Cavanşir Xəzərlərin vassallığından azad oldu
A) 2, 4, 5 B) 1, 2, 3 C) 1, 3, 4
D) 1, 3, 5 E) 1, 2, 4

73. Qədim Misir və Şumerlər üçün oxşar cəhətdir:
A) İlk yazının əşyanın şəklinin çəkilməsi ilə yaranması
B) Hökmdar məzarına ehram inşa edilməsi
C) Suriya uğrunda müharibələr
D) Mixi yazı sistemindən istifadə
E) e.ə IV minillikdə vahid dövlətin yaranması

74. Avropada qədim dövr başa çatdı:
A) İmperator Konstantinin vəfat etməsi ilə
B) Roma imperiyasının Qərb və Şərq hissələrə bölünməsi ilə
C) Qərbi Romanın süqutu nəticəsində
D) Xristianlığın meydana gəlməsi ilə
E) Makedoniyalı İskəndərin vəfatı nəticəsində

75. Hökmdar Aşokanın fəaliyyətinə ***aid deyil:***
A) Hindistan vahid dövlətdə birləşdirildi
B) Yunan - Makedoniya işğalına qarşı mübarizəyə başladı
C) Buddizmin əsas himayədarı və təbliğçisi idi
D) Ölkənin müxtəlif səmtlərində 33 kitabə qoydurdu
E) Bir sıra sahələrdə islahatlar apardı

76. Uyğunluğu müəyyən edin:




A) 2, 3 B) 1, 5 C) 2, 4
D) 3, 5 E) 1, 4

77. Uyğunluğu müəyyən edin:




A) 1-a,c; 2-b
B) 1-c; 2-c
C) 1-b; 2-a
D) 1-c; 2-a
E) 1-a; 2-a,b

78. Azərbaycanın şimal torpaqlarında Arşaki sülaləsinin hakimiyyətə gəldiyi əsrə uyğun gəlir:
A) Feodal iqtisadi münasibətlərinin yaranması
B) Atropatena dövlətinin yaranması
C) Zərdüştiliyin meydana gəlməsi
D) Qobustanda tapılan Roma – Albaniya münasibətlərinə aid yazılı mənbə
E) Antoninin başçılığı ilə Romalıların şərq yürüşü

79. E.ə V əsrin ikinci yarısı Yunan tarixinə aid xüsusiyyətləri müəyyən edin:
1. Olimpiya oyunları adlanan ilk yarışların keçirilməsi
2. Makedoniya ordusuna məğlub olmaları
3. Afina demokratiyası ilə Sparta oliqarxiyası arasında ziddiyyətlər
4. I Daranın Yunanıstana hücumunun başlanması
A) Yalnız 3 B) 1, 4 C) 2, 3
D) Yalnız 4 E) 1, 2

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

80. Hadisə və Nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Solon islahatlarının keçirilməsi | Xalq yığıncağının ali hakimiyyət orqanına çevrilməsi |
| B) | Periklin hakimiyyətə gəlməsi | Makedoniya dövlətinin güclənməsi |
| C) | Fermopil döyüşünün baş verməsi | Afina dəniz ittifaqının dağılması |
| D) | Demos və əyanlar arasında mübarizə | Yunan koloniyalarının meydana gəlməsi |
| E) | Dorilərin şimaldan Yunanıstana yürüşü | Mikena sivilizasiyasının dağılması |

81. Xüsusiyyətləri xəritədə rəqəmlər ilə verilmiş qədim dövlətlərə uyğunlaşdırın:




a. Vəzifələrə yalnız patrisilər seçilə bilərdi
b. 12 lövhə qanunları qəbul edilmişdi
c. E.ə II əsrdə ərazisi işğal edildi
d. Yoxsullara dövlət vəzifələrində çalışa bilmələri üçün əmək haqqı verilirdi
A) 1-a; 2-c
B) 1-a,b; 2-c,d
C) 1-b; 2-c,d
D) 1-d; 2-a,b
E) 1-b; 2-d

82. Ağ Hun hökmdarı Ağsuvar xan və Qərbi Hun hökmdarı Attilanın fəaliyyətlərinə aid ümumi cəhət:
A) Sasanilərin məğlub edilməsi
B) Qərbi Roma ilə müharibələr
C) V əsrin I yarısında hakimiyyətə gəlmələri
D) Ötükən şəhərinin paytaxt seçilməsi
E) Şimal-qərbi Hindistanın işğal edilməsi

t.me/BirlikTeam1

**Açıq tipli test tapşırıqları:**

83. Göytürk xaqanlarını müəyyən edin:
1. Qutluq xan
2. Ağsuvar xan
3. Bumin xaqan
4. Qapağan xaqan
5. Balamir xan

84. *Onun hakimiyyəti dövrü Albaniyanın siyasi və mədəni – dini dirçəliş kimi səciyyələndirilir. O, əvvəlcə ölkədə dini birliyə nail omağa çalışdı. Kilsə məclisi çağıraraq mühüm qərarlar qəbul edildi.*
Mətndə bəhs edilən hökmdardan fərqli olaraq Alban hökmdarı Urnayr:
1. Xristianlığı dövlət dini elan etdi.
2. Sasani şahı II Şapurun müttəfiqi idi
3. Albaniya dövlətinin müstəqilliyini möhkəmləndirməyə çalışırdı
4. Albaniyanın son Arşaki hökmdarı idi

85. Xronoloji ardıcılılğı müəyyən edin:
1. Parfiya Arşakilər sülaləsinin süqutu
2. III Antioxun Atropatenaya hücumu
3. Karra döyüşü
4. Sərkərdə Kanidinin Cənubi Qafqaza yürüşü

86. Misirin e.ə III minillik tarixinə aiddir:
1. Heroqlif yazının yaranması
2. İlk piramidanın inşası
3. Ayrı-ayrı hissələrə parçalanması
4. II Ramzesin hetlərlə mübarizəsi
5. Memarlıqda böyük inkişafın baş verməsi

87. Uyğunluğu müəyyən edin:
1. Cərmidan döyüşü
2. Kadisiyə döyüşü
3. Bələncər döyüşü
a. Azərbaycan mərzbanı İsfəndiyar məğlub oldu
b. Döyüşdə Cavanşir Ərəblərə qarşı vuruşurdu
c. Ərəblərin Azərbaycan ərazisinə yürüşlərinə son qoyuldu
d. Xəzərlər qalib gəldi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

İran-Yunan müharibələrində qələbədən sonra Yunan dövlətlərinin gələcək inkişafı ya Sparta, ya da Afina yolu ilə gedə bilərdi. Peloponnes ittifaqının qurultayında müttəfiqlər Afina ilə müharibəyə başlamaq qərarına gəlirlər. Başlanmış olan diplomatik danışıqlarda spartalılar Afina dövləti qarşısında ultimatum xarakteri daşıyan bir sıra tələblər qoydular. (məsələn, Periklin Afinadan qovulması, Afina dəniz ittifaqı üzvlərinə muxtariyyət verilməsi və s.). Bu tələblər, əlbəttə, qəbul edilə bilməzdi. Peloponnes ittifaqının tələblərinə rədd cavabı veriləndən sonra hər iki tərəf üçün müharibədən başqa çıxış yolu qalmırdı.

88. Mənbədə bəhs edilən müharibənin başlanmasının səbəblərini tarixi biliklərinizə əsasən müəyyən edin: (Azı 1 səbəb)

89. Mənbədə bəhs edilən müharibənin nəticələrini müəyyən edin: (Azı 2 nəticə)

90. Mənbədə bəhs edilən müharibənin başlanma və bitmə tarixlərini qeyd edin:

InfoBilikTeam1

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1